# RUHU CANIMIZDADIR

Erkən oyandı günəş,
Üfüq nura boyandı.
Bir ana ürəyində
Sevinc məşəli yandı.

Allandı həyət-baca,
Hər yanda toy-düyündü.
Əliyevlər evində
Bir ürək də döyündü.

Tarix qismət elədi,
Xalqıma bu oğulu.
Zəkası dərin idi,
İtiydi onun ağlı.

Seçildi hər məqamda
Hünəri, istedadı,
Qonşu məktəblərə də
Çatdı sorağı, adı.

Böyüdü, artdı boyu
Arzularla bərabər,
Biliyi sayəsində
Qalxdı zirvəyə qədər.

Müsibətlər çəkmişik,
Bu illər ərzində biz.
Hansı haqsızlıqları
Görməyibdir gözümüz?!

Arxası, dayağıydı
Dar ayaqda millətin,
Tanrı hökmüylə kəsdi
O, kökünü zillətin.

Əksi gözlərimizdə,
Eşqi qanımızdadır.
Hopub ürəyimizə,
Ruhu canımızdadır.

***Valeh Mirzə***
***Azərbaycan dövlətçiliyinin qoşa qanadı. – B.: Təhsil, 2006. – S.327-328.***